№ 160 (4460) 08 oktyabr 2020-ci il

# Ermənilərin müharibə planı başdan-ayağa cinayətdir

## Dinc sakinləri hədəfə çevirməklə qisas almaq ermənilikdən gələn xislətdir

30 ilə yaxındır düşmən tapdağı altında inləyən Azərbaycanın Qarabağ bölgəsinin böyük hissəsi tezliklə azadlığa qovuşacaq. Şəhidlərimizin qanı ilə suvarılmış bu başıbəlalı torpağın rövnəqli günləri başlayacaq, vətənimizin müasir tarixinin yazılmasında öz möhtəşəmliyi ilə iştirak edəcək. Azərbaycan ordusu qarış-qarış, amma inamla irəliləyir. Dünyanın müxtəlif guşələrindən, müxtəlif millətlərdən olan və müxtəlif dövlətlərin maraqlarını ifadə edən hərbi ekspertlər və mütəxəssislər əsgər və zabitlərimizin mükəmməl döyüş hazırlığından, müasir və yeni döyüş təlimlərindən bacarıqla istifadə etməklərindən danışır, nümunə göstərir və müharibəni qalibiyyətlə başa çatdıracaqlarını proqnozlaşdırırlar.

Rusiyanın "Nasionalnaya oborona" jurnalının baş redaktoru İqor Korotçenko regionda baş verənlərin müharibə olduğunu başa düşmək lazımdır: "Başa düşmək lazımdır ki, bu, müharibədir. Burada həm uğurlar, həm də uğursuzluqlar ola bilər. Hər şey Azərbaycan Silahlı Qüvvələrinin hərbi əməliyyatları ağıllı planlaşdırmasından asılıdır. Hələlik, seçilmiş taktika, yeni əsgərlərin həyatını qorumaqla və yüksək dəqiqlikli silahlardan istifadə etməklə irəliləmək mümkün olub. Buna cavab olaraq isə Ermənistan Azərbaycanın dinc şəhərlərini atəşə tutur. Bu, hərbi cinayətdir".

Ermənistanın keçmiş müdafiə naziri, baş nazir Nikol Paşinyanın müşaviri Vaqarşak Arutyunyan Rusiya telekanalının efirində bununla bağlı sensasiyalı etiraflar edib. Vaqarşak Arutyunyan Ermənistanın məqsədyönlü şəkildə Azərbaycanın dinc əhalisini atəşə tutduğunu deyib. "İndi biz topçuları vurmaq taktikasına hazırlayırıq. Və gələcəkdə çaxnaşmaya səbəb olmaq üçün dinc yaşayış məntəqələrinə zərbə vuracağıq...", - deyə, Vaqarshak Arutyunyan, "Rusiya 1" telekanalındakı "Vesti" verilişinə verdiyi müsahibədə deyib. Bu etiraf, İqor Korotçenkonun dediyi kimi, həm də müharibə cinayəti sayılır. A.Arutyunyanın dediklərinə görə, şəhərlərimizin bombalanması, əhalinin panikaya düşməsi və qətlə yetirilməsi Ermənistan rəhbərliyinin planıdır. Məlum olduğu kimi, bu plan əsasında da Gəncə, Bərdə, Mingəçevir, Goranboy və digər yaşayış məntəqələri bombalanıb. Azərbaycanın bu plan ilə bağlı bu günə kimi əlində sübutu yox idi. Çünki ermənilər bunu etiraf etmirdilər. Lakin Vaqarşak Arutyunyanın bu etirafı çox ciddi şəkildə vəziyyəti dəyişir. Çünki, bu, Ermənistan rəhbərliyinin cinayətlərini sübut edən faktdır və gələcəkdə həmin şəxslərin beynəlxalq



tribunala verilməsinə əsas yaradan mötəbər dəlildir.

Ermənistan ordusunun məğlubiyyəti qaçılmazdır. Bu aksiomanın iqtisadi, hərbi-siyasi formulu ilə yanaşı mənəvi bazası da var: Azərbaycan haqq tərəfidir, Ermənistan isə təcavüzkar və cinayətkarlıq daşıyıcısı. Artıq vəziyyət o həddə çatıb ki, Ermənistanın bütövlükdə terrorçu dövlət olmasını təsbit edən kifayət qədər materiallar, faktlar var. Bir hökumət nə dərəcədə ağlını itirməlidir ki, döyüş səhnəsində itirdiklərinin qisasını mülki vətəndaşlardan alsın. Yox, bu adamlara aman verməmək olmaz, onlar tək azərbaycanlılar üçün yox, ümumiyyətlə bəşəriyyət və bəşər övladı üçün təhlükə mənbəyidir. Düşünmək olardı ki, müharibədə uduzduğunu anlayan Paşinyan və onun komandası xalqını və ölkəsini xilas etmək üçün dərhal sülh üçün lazım olan şərtləri qəbul edəcək, ziyanın yarısından qayıtmaqla gələcək perspektiv üçün müəyyən imkanlar yaradacaq. Ancaq bu adam və ümumiyyətlə ermənilliyin nümayəndələri xəstə təxəyyülləri ilə yeni qurbanlarla özlərinə təsəlli verməyə çalışır, bununla da talelərinin acılığını təsbit edirlər. Onlar elə bilirlər ki, Azərbaycanın cəbhə bölgəsindən kənardakı yaşayış məskənlərinə atəş açmaqla Azərbaycanı müharibəni Ermənistan ərazisinə keçirməyə sövq edəcək və Rusiyanı, onun rəhbərliyi ilə KTMT-ni Ermənistana köməyə gəlməyə məcbur edəcək. Bu, yalnız küçədən hakimiyyətə gəlmiş dırnaqarası siyasətçinin ağlına gələ bilər.

İnşallah, tezliklə müharibə bitəcək, Azərbaycan ərazi bütövlüyünü bərpa edəcək və sonra cinayətkarların mühakiməsi tüğyan edəcək. Bu yerdə "tüğyan" sözü yerinə düşür, ona görə ki, Ermənistanın rəhbərləri olan və olmuş şəxslər arasında o qədər hərbi-siyasi cinayətkar var ki, onların çoxluğunu yalnız bu sözlə ifadə etmək olar. Onda bu şəxslər nə deyəcək, özlərini nə ilə müdafiə edəcək məlum deyil.

**N.NOVRUZ**